

# Cahana sığmayan dahi





İnsanpərvərlik və azadlıq nəğməkarı olan şair İmadəddin Nəsiminin anadan olmasının 650 illiyi və "Nəsimi ili" ilə bağlı Sumqayıt Regional Mədəniyyət İdarəsinin tabeliyində olan müəssisələrdə silsilə tədbirlər təşkil olunub.

Sumqayıt şəhər S.Vurğun adına Mərkəzi Kitabxanada "Cahana sığmayan Azərbaycan şairi", Gənclər kitabxanasında "Əbədiyyət üfüqündə doğmuş eşq günəşi", Mərkəzi Uşaq Kitabxanasında "Böyük şair və mütəfəkkir", Hacı Zeynalabdin Tağıyev qəsəbə kitabxanasında "Azərbaycanın böyük şairi", Ə.Vahid adına kitabxana filialında "Məhəbbət və gözəllik şairi" adlı kitab sərgiləri təşkil edilib.



Nizami Gəncəvi adına kitabxana-klubun əməkdaşları 27 nömrəli tam orta məktəbdə "Cahana sığmayan şair" adlı səyyar sərgi, Mərkəzi kitabxananın Uşaq şöbəsi 5 saylı məktəbin 6-cı sinfində "Nəsiminin sözü həqdir, həqqi bil" adlı ədəbiyyat saatı keçirib. Tədbirdə şagirdlərə dahi şairin həyat və yaradıcılığı, fəlsəfi görüşləri haqqında geniş məlumat verilib. Mərkəzi Uşaq Kitabxanasında 12 və 16 nömrəli məktəblərin yuxarı sinif şagirdlərinin iştirakı ilə şairin yaradıcılığına həsr olunmuş "Nəsiminin mənəvi irsi" adlı oxucu konfransı təşkil olunub.

Sumqayıt şəhər Poeziya evi və 16 nömrəli tam orta məktəbin birgə təşkilatçılığı ilə keçirilən "Əbədiyyət üfüqünün parlaq günəşi" adlı tədbirdə şəhər İcra Hakimiyyəti, AMEA-nın Folklor İnstitutu, şəhər Təhsil şöbəsinin əməkdaşları və başqaları çıxış ediblər. Sumqayıt Dövlət Dram Teatrının aktyorları Nəsimiyə həsr olunmuş səhnəcik nümayiş etdiriblər.

Sumqayıt şəhər Nəsimi adına mədəniyyət və istirahət parkında Sumqayıt Dövlət Rəsm Qalereyası tərəfindən "İki cahan" adlı plener – açıq səma altında etüd müsabiqəsi keçirilib. Müsabiqədə 4 saylı Diyarşünaslıq klubu, Bülbül, S.Rüstəmov, Ə.Bakıxanov adına musiqi və incəsənət məktəblərinin şagirdləri iştirak ediblər.

***

Abşeron rayonu Qobu qəsəbə Uşaq incəsənət məktəbi və qəsəbə Sənətkarlıq evinin birgə təşkilatçılığı ilə Nəsiminin 650 illik yubileyinə həsr olunan ədəbi-bədii gecə keçirilib. Tədbirdə qədim musiqi alətləri və sufi musiqisi elementlərinin müşayiəti ilə şairin qəzəllərindən ibarət muğam konserti təşkil edilib. Çıxışlarda Nəsiminin həyat və yaradıcılığından, onun təbliğ etdiyi hürufilik dini-fəlsəfi təlimindən, şairin əsərlərinin dil və üslub xüsusiyyətlərindən bəhs edilib, zəngin bədii irsinin tədqiqi istiqamətində aparılan işlərdən danışılıb.



***

Şuşa şəhər Niyazi adına Uşaq incəsənət məktəbində rəssamlıq şöbəsinin şagirdləri arasında "Nəsimi uşaqların gözü ilə" mövzusunda müsabiqə təşkil olunub. 15 şagirdin müsabiqəyə təqdim etdiyi əsərlər arasından seçilən beş nümunənin müəllifi fəxri fərmanla təltif edilib.

***

Qubadlı rayon MKS-nin təşkilatçılığı ilə Nəsiminin 650 illiyinə həsr olunmuş "Həqiqət günəşi" adlı tədbir keçirilib. Tədbirdə mədəniyyət işçiləri, Sumqayıt Regional Mədəniyyət İdarəsinin nümayəndəsi Eldar Hüseynov və oxucular iştirak ediblər. MKS-nin direktoru Müşgünaz Muradova, regional idarənin baş məsləhətçisi Əmrah Hüseynov və digər çıxış edənlər qüdrətli söz ustadının insanı ilahiləşdirən, ucaldan bənzərsiz şeirlər qələmə aldığını deyiblər. Qeyd olunub ki, Azərbaycan ədəbi dilinin formalaşmasında Nəsimi poeziyasının müstəsna rolu var. Çıxışlarda 2019-cu ilin ölkəmizdə "Nəsimi ili" elan olunması barədə Prezident İlham Əliyevin sərəncamı yüksək qiymətləndirilib.

Rayon Mədəniyyət evinin bədii qiraət dərnəyinin üzvləri Nəsimiyə həsr olunmuş bədii nümunələrdən parçalar oxuyublar, şairin qəzəlləri üstündə muğamlar ifa edilib. Onun qəzəlləri xanəndə Məzahir Məmmədovun ifasında alqışlarla qarşılanıb. MKS-nin təşkilatçılığı ilə "Nəsimi 2019" başlıqlı geniş kitab sərgisi təşkil edilib. Şairin əsərlərinin biblioqrafik göstəricisi hazırlanıb. Tədbirdə fəal iştiraka görə dərnəyin üzvlərinə MKS tərəfindən kitablar hədiyyə olunub və fəxri fərmanla təltif ediliblər.







Xızı rayon Heydər Əliyev Mərkəzində mədəniyyət və təhsil işçilərinin, məktəblilərin iştirakı ilə Nəsiminin yubileyinə həsr olunmuş konfrans keçirilib. Konfransdan sonra tədbir iştirakçıları Heydər Əliyev Mərkəzi və Mərkəzi kitabxananın fondunda saxlanılan kitablardan ibarət "Nəsimi 650" və "Qürub edən günəş" adlı kitab sərgiləri ilə tanış olublar. Sonda "Nəsimi" filmi nümayiş etdirilib.

Rayon MKS-nin kitabxana filiallarında Nəsiminin 650 illik yubileyinə həsr olunmuş dəyirmi masalar, sərgilər təşkil edilib. Mərkəzi kitabxana tərəfindən hazırlanan və Nəsiminin ömür və sənət yolundan bəhs edən videoçarx maraqla qarşılanıb.

***

Zəngilan rayon MKS-nin Mərkəzi Kitabxanasında Nəsiminin 650 illiyinə həsr olunan seminar, kitab sərgisi və dəyirmi masa keçirilib. Tədbirdə Bakı şəhəri N.Nərimanov rayonu 193 saylı tam orta məktəbin şagirdləri şairin qəzəllərindən nümunələr səsləndiriblər. Zəngilan kənd klubunda keçirilən tədbirdə Nəsiminin Azərbaycan xalqının bədii və fəlsəfi fikrində dərin iz qoymuş mütəfəkkir şair, qüdrətli söz ustadı olduğu vurğulanıb.



Rayon Mədəniyyət evi, Gənclər və idman idarəsi və 29 nömrəli tam orta məktəbin birgə təşkilatçılığı ilə Nəsiminin yubileyi münasibətilə tədbir keçirilib. Tədbirdə məktəbin şagirdləri şairin ömür yoluna həsr olunan səhnəciklər təqdim edib və qəzəllərini söyləyiblər. Sonda iştirakçılar "Nəsimi" bədii filmini izləyiblər.

Zəngilan Rayon Tarix-Diyarşünaslıq Muzeyində təşkil olunan bədii qiraət müsabiqəsində Nəsiminin qəzəlləri səsləndirilib.

***

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən "Bölgələrdən bölgələrə" yaradıcılıq festivalının Abşeron rayonunun Xırdalan şəhərində gerçəkləşən tədbirində də böyük şairin irsinə xüsusi diqqət ayrılıb. Festivalda "Nəsimi ili" ilə əlaqədar ayrıca kitab guşəsi təqdim olunub. Festivalda balaca ziyarətçilərin də maraqları nəzərə alınıb. "Günəşim" və "Cırtdan" kukla teatrlarının hazırladıqları tamaşalar uşaqların zövqünü oxşayıb. Konsert proqramında hər bir regional idarə üzrə folklor qrupları, yerli incəsənət və bədii özfəaliyyət kollektivlərinin çıxışları, musiqi nömrələri, rəqslər tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb. Zəngilan rayonunun folklor kollektivi, Abşeron rayon Mədəniyyət Mərkəzinin Xalq teatrı, bir neçə musiqi məktəbinin sazçalanlar ansamblı və rəqs kollektivlərinin çıxışı festivala xüsusi rəng qatıb.




Mədəniyyət: xüsusi buraxılış.- 2019.- iyul. S. 12-13.